# Onkoginekoloqların I Bakı forumu keçirilir

Aprelin 4-də Səhiyyə Nazirliyi Milli Onkologiya Mərkəzində onkoginekoloqların I Bakı forumu öz işinə başlayıb.

AZƏRTAC xəbər verir ki, forumda Rusiyanın tanınmış onkoginekoloqlarının iştirakı ilə uşaqlıq boynu patologiyaların müalicəsində yeni texnologiyalara dair müzakirələr aparılır. Milli Onkologiya Mərkəzinin qadın dünyası şöbəsinin təşəbbüsü və təşkilatçılığı ilə keçirilən forumda Bakı şəhərində fəaliyyət göstərən bütün ginekoloji müəssisələrin, o cümlədən qadın məsləhətxanalarının həkimləri iştirak edirlər.

Açılışda Milli Onkologiya Mərkəzinin baş direktoru, akademik Cəmil Əliyevin forum iştirakçılarına məktubu oxunub.



Akademik Cəmil Əliyev forumun işinə uğurlar arzulayıb. Süd vəzi xərçənginin və uşaqlıq boynu patologiyaların müalicəsində forumun əhəmiyyəti vurğulanıb.

İlk təqdimatla Rusiya Elmlər Akademiyasının müxbir üzvü, professor Vsevolod Kiselyov çıxış edib. Rusiyalı alim dünyada onkologi xəstəliklərin sayında artım olduğunu, süd vəzi xərçənginin hətta yeniyetmə qızlarda və gənc qadınlarda belə müşahidə edildiyini diqqətə çatdırıb. Qeyd edib ki, buna görə Dünya Səhiyyə Təşkilatı onkoloji xəstəliklərin profilaktikasını və müalicəsini əsas vəzifə kimi qarşıya qoyub. "Hesab edirəm ki, bugünkü Bakı forumunda onkoginekoloji xəstəliklərə dair dinləniləcək məruzələr və aparılacaq müzakirələr hər iki ölkənin mütəxəssisləri üçün çox faydalı olacaq", - deyə V.Kiselyov bildirib.

Rusiyanın Genital İnfeksiya və Neoplaziya üzrə Assosiasiyasının prezidenti Svetlanan Roqovskayanın da məruzəsi iştirakçılar tərəfindən maraqla qarşılanıb.

Milli Onkologiya Mərkəzinin onkoginekologiya şöbəsinin müdiri Şəmistan Alıyev isə Azərbaycanda onkoloji xəstəliklərlə bağlı məruzə edib. Qeyd edilib ki, ötən il Azərbaycanda 38 min 932 nəfər onkoloji xəstə qeydiyyata götürülüb. Bu il təxminən 40 min xəstə qeydiyyatdadır. Ölkəmizdə onkoloji xəstəliklərlə bağlı lazımi dərman ehtiyatının yaradıldığı vurğulanıb.

İki gün davam edəcək forumda "Onkoginekologiyada müasir texnologiyalar", "Neoplaziyanın elmi aspektləri", "Uşaqlıq boynunun fiziologiyası və patologiyası", "Kolposkopiyada çətin vəziyyətlər: hamiləlik, atrofiya, iltihab", Hormonlar və epitelial displaziya" və s. mövzularda tanınmış alim və professorların məruzələri dinləniləcək. Həmçinin kolposkopiya və fiziocərrahiyyə ilə bağlı ustad dərsləri təşkil olunacaq.

**AZƏRTAC**

Azərbaycan Respublikası Konstitusiya Məhkəmə-

## AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN